Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Dünyaya həqiqəti çatdırmaq istəyən tənha insan - Cek London

Görkəmli Amerika yazıçısı Cek Londonun 140 illik yubileyinə həsr olunmuş metodik vəsait

Bakı - 2016

Tərtibçi: Tərană Hacıyeva

Redaktor və buraxılışa məsul: Zahirə Dadaşova

**Dünyaya həqiqəti çatdırmaq istəyən tənha insan – Cek London:** Cek Londonun 140 illik yubileyinə həsr olunmuş metodik vəsait / tərt. ed. T.Hacıyeva; red. və bur. məs. Z.Dadaşova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası. – Bakı, 2016. – 29 s.

## Tərtibçidən:

Bu vəsait görkəmli Amerika yazıçısı Cek Londonun 140 illik yubileyi münasibətilə F.Köçərli adına Respublika Uşaq Kitabxanası tərəfindən hazırlanmışdır.

Cek London çox maraqlı, macəra dolu həyat sürmüş, şəxsiyyəti və əsərləri ilə bu gün də geniş oxucu kütləsi tərəfindən sevilən bir yazıçıdır. O, hələ dünyaya gəlməmişdən taleyinə qalmaqallı məşhurluq yazılmışdı. Belə ki, 1875-ci ilin iyununda San-Fransisko sakinləri qəzetdə belə bir məlumat oxudular: "hamilə gənc qadın odlu silahdan gicgahına atəş açaraq intihara cəhd etmişdir". Buna səbəb isə uşağın atasının hələ dünyaya gəlməmiş körpəni məhv etmək tələbi idi. Bu qalmaqalın qəhrəmanları gələcək yazıçının anası və atası Flora Uellman və astroloq professor Çeni idilər. Lakin xoşbəxtlikdən bu hadisə faciə ilə nəticələnmir, balaca Cek dünyaya gəlir. Atası isə ömrünün sonuna qədər Cekin atası olduğunu qəbul etmir. London soyadını isə ona atalığı Con London verir.

Cek London yaradıcılığa erkən yaşlardan başlamışdır. Onun yaradıcılığının erkən dövrlərində qələmə aldığı əsərləri ("Şimal Odisseyası", "Cənub dənizlərinin nağılları") təbiətə sevgi ilə, macəraçı romantika ilə diqqəti cəlb edir. Onun həmin dövrlərdə yazdığı əsərlərinin qəhrəmanları şəhərdən uzaqda yaşayan enerjili, dostluğa sadiq insanlardır. Onun bir şox əsərlərində ("Bəyaz Diş", "Əcdadların harayı", "Maykl, Cerrinin qardaşı") heyvanlar dərin bilgi və sevgi ilə təsvir olunur.

C.London siyasi görüşlərinə görə bir sosialist idi. O, həqiqi azadlığa qovuşmağın yolunu ictimai ədalətsizliyə qarşı mübarizədə görürdü. Yazıçı 1907-ci ildə qələmə aldığı "Dəmir daban" əsərində bu fikirlərini inkişaf etdirmişdir.

200-dən çox hekayə, 20 roman və 3 pyesin müəllifi olan Cek Londonun yaradıcılığı orijinallığı, zəngin təxəyyülü, gözlənilməz gedişləri və cəsarəti ilə seçilir. Çox qısa, cəmi qırx il ömür sürsə də, yazıçı və onun insan iradəsinin sarsılmazlığını, insanın məğlubedilməzliyini, cəsarətini tərənnüm edən əsərləri hər zaman insanlarda maraq doğurmaqdadır. Bu əsərlər heç şübhəsiz ki, gələcək nəsillərin də sevərək oxuyacağı əsərlər olmaqda davam edəcək.

Bu vəsaitin yazılmasında məqsəd dahi yazıçının 140 illiyi münasibətilə məktəbli və yeniyetmələrdə, gənclərdə onun haqqında olan məlumatı genişləndirmək, təhsil, mədəniyyət müəssisələrində keçiriləcək tədbirlərə köməklik göstərməkdən ibarətdir.

# I Hissə

## Həyatı və yaradıcılığı

Görkəmli Amerika yazıçısı, ictimai xadim, əsasən macəra romanları və hekayələrinin müəllifi kimi şöhrət tapmış Cek London (Con Qriffit Çeyni) 12 yanvar 1876-cı ildə San-Fransiskoda anadan olmuşdur. Onun anası Flora Vellman musiqi müəllimi, atası Vilyam Çeyni astroloq olmuşdur. Lakin V.Çeyni ömrünün sonuna kimi Cekin atası olduğunu qəbul etməmişdir. 1876-cı ildə Flora Vellman Vətəndaş müharibəsi veteranı olan Con London adlı şəxslə ailə qurur. C.London gələcəyin yazıçısını oğulluğa götürür və ona öz adını və soyadını verir (Cek Con adının

qısaldılmış formasıdır). Həmin illərdə ABŞ-da güclü iqtisadi böhran yaşanırdı, minlərlə insan öz iş yerlərini itirirdi. Cekin ailəsi daim ehtiyac içərisində yaşayırdı, tez-tez yaşayış yerini dəyişməyə məcbur idi. Nəhayət, Londonlar ailəsi San-Fransisko yaxınlığındakı Oklend şəhərində məskunlaşırlar və balaca Cek burada ibtidai sinifi başa vura bilir.

Cek London erkən yaşda əmək fəaliyyətinə başlamışdır. O, təhsilini davam etdirməklə yanaşı, qəzet satır, parkda pivə pavilyonlarında xadimə işləyir. On dörd yaşında məktəbi bitirən Cek London konserv fabrikinə fəhlə işinə qəbul olur. Lakin burada iş ağır olduğundan Cek tezliklə işdən çıxır və müstəqil şəkildə balıq, ilbiz tutmaqla məşğul olur. "Balıqçı gözətçisinin hekayələri" yazıçının həyatının bu dövrünə həsr olunmuşdur.

C.London 1893-cü ildə Yaponiya sahillərinə və Berinq dənizinə üzən sənaye gəmisinə matros düzəlir. Bu səfər yazıçıya çoxlu təəssürat qazandırır və bu təəssüratlar onun bir çox hekayə və romanlarının əsasını təşkil edir ("Dəniz qurdu" və s.). Dənizçilikdən sonra Cek London bir müddət fabrikdə, daha sonra camaşırxanada ütüləyici, yanğınsöndürən işləyir ("Martin İden" əsəri bu illərdə qələmə alınmışdır).

Yazıçının "Yaponiya sahillərində tayfun" adlı ilk oçerki 12 noyabr 1893-cü ildə San-Fransisko qəzetlərindən birində nəşr olunur. Onun ilk dəfə mükafata layiq görülən bu oçerki ədəbi karyerasının da əsasını qoyur.

1894-cü ildə Vaşinqtonda işsizlərin yürüşündə iştirak edən C.London həbs olunur və bir ay həbsxanada qalır.

Fiziki əməklə həyatda nəyəsə nail olmağın mümkünsüz olması qənaətinə gələn C.London yazıçı olmaq qərarına gəlir. Yürüş zamanı o, ilk dəfə sosialist ideyaları ilə tanış olur. Bu ideyalar ona çox böyük təsir göstərir. 1895-ci ildə Amerika Sosialist Əmək partiyasına daxil olan C.London 1900-cü ildən Amerika Sosialist Partiyasının üzvü olur. Lakin 1914-cü ildə partiyadan xaric olur.

Bütün bu macəralardan sonra evə qayıdan Cek təhsilini davam etdirməyə qərar verir. Lakin təhsilin tempindən narazı olduğundan məktəbi tərk edir və özü müstəqil şəkildə universitetə hazırlaşır. İmtahanları uğurla verən C.London Kaliforniya universitetinə daxil olur, amma təhsilini davam etdirməyə maddi vəsaiti olmadığından üçüncü  semestrdən universiteti tərk edir.

1897-ci ildə əksər insanlar kimi "qızıl qızdırması"nın təsirinə məruz qalan C.London Alyaskaya gedir. O, burada qızıl tapmasa da, gələcək yaradıcılığı üçün çoxlu personajlar qazanır. Şimal qışının bütün çətinliklərini dadmış Cek 1898-ci ildə San-Fransiskoya qayıdır. Alyaskadan qayıtdıqdan sonra, 23 yaşında ciddi ədəbi yaradıcılıqla məşğul olmağa başlayan C.Londonun ilk şimal hekayələri toplusu "Canavar oğlu" 1900-cü ildə çapdan çıxır. Bu kitabın ardınca yazıçının yeni kitabları işıq üzü görür:  "Atalarının Tanrısı" (1901), "Şaxtanın övladları" (1902), "İnsana inam" (1904), "Ay üzlü" (1906), "İtirilmiş üz" (1910) hekayə topluları, "Qarlar qızı" (1902), "Dəniz canavarı" (1904) hekayə topluları və yazıçıya böyük şöhrət gətirmiş "Martin İden" (1909) romanı. Yazıçı çox məhsuldar, gündə 15-17 saat işləyirdi. O, özünün çox da uzun olmayan yazıçılıq həyatı boyunca 40 kitab ərsəyə gətirmişdi.

Cek Londonun yaradıcılıq metodu əsasən onun insanı çətin həyati vəziyyətlərdə, taleyin sınadığı anlarda göstərmək cəhdindən ibarətdir. Onun əsərlərində şəraitin realist təsviri romantika və macəra ruhu ilə uzlaşır. C.London öz üslubunu "insana və onun arzularına inamla dolu ilhamlı realizm" adlandırırdı. Onun əsərləri üçün xüsusi, özünəməxsus poetik dil səciyyəvidir. Yazıçı R.Stivenson və R.Kiplinqi özünün ədəbi müəllimləri hesab edirdi. Onun həyat fəlsəfəsinin formalaşmasına isə Q.Spenser, Ç.Darvin, K.Marks, F.Engels, müəyyən dərəcədə F.Nitsşe böyük təsir göstərmişlər.

1907-ci ildə yazıçı "Snark" gəmisi ilə dünya səyahətinə çıxır. Bu səyahət 7 il müddətinə nəzərdə tutulmuşdu. Lakin yazıçının xəstəliyi səbəbindən 1909-cu ildə səyahət yarıda kəsilir. Səyahət müddətində "Snarkın səyahəti", "Cənub dənizlərinin hekayələri", "Günəşin oğlu" kitabları üçün zəngin material toplayır. Yazdığı əsərlər Cek Londona böyük sərvət qazandırır. Onun bir kitab üçün qonorarı 50 min dollara çatırdı, bu isə o dövr üçün çox böyük məbləğ idi.

C.Londonun çoxcəhətli istedadı onun elmi-fantastik hekayələr yazmasında da özünü göstərir. "Qoliaf", "Bütün dünyanın düşməni", "Al-qırmızı taun", "Dünya gənc olan zaman" və digər əsərlər üslub orijinallığı, təxəyyül zənginliyi, gözlənilməz gedişləri ilə seçilir.

1905-ci ildə ranço satın alan C.London kənd təsərrüfatı ilə məşğul olmağa başlayır. Lakin bu iş sonda onun çoxlu borca girməsinə səbəb olur.

Yazıçı ömrünün son illərində yaradıcılıq böhranı keçirir, buna görə o hətta alkoqoldan hədsiz istifadə etməyə başlayır.

Cek London 22 noyabr 1916-cı ildə vəfat edir. O, böyrək xəstəliyindən əziyyət çəkirdi və ağrılarının sakitləşməsi üçün ona yazılmış morfidən zəhərlənərək ölmüşdür. Lakin intihar versiyası da geniş yayılmışdır.

Cek Londonun əsərlərinin motivləri əsasında çoxlu sayda filmlər çəkilmişdir. Ümumilikdə onun əsərlərinin yüzdən çox ekran nümunəsi mövcuddur.

## Görkəmli şəxsiyyətlər Cek London haqqında:

Mən Cek Londonda sakit gücü, möhkəm və aydın ağılı, məğrur cəsarəti sevirəm.

*Leonid Andreyev*
*yazıçı*

Mən Cek London nəsrinin əsas məziyyətini aydınlığında, vəhşi və özünəməxsus poeziyasında, ifadə gözəlliyində və xüsusi, özünəməxsus cəlbediciliyində görürəm.

*Aleksandr Kuprin*
*yazıçı*

O – iradənin yaradıcı gücünü yaxşı görən, dərindən hiss edən və iradəli insanları təsvir etməyi bacaran yazıçıdır.

*M.Qorki*
*yazıçı*

Cek Londonun bəzi povestləri, xüsusilə “Dəmir daban” əsəri əsl sosialist ədəbiyyatına aid olunmalı ilk əsərlərdəndir. Mən onun yaradıcılığını çox yüksək qiymətləndirirəm.

*A.V.Lunaçarski*
*dövlət xadimi, yazıçı, tənqidçi*

## II Bölmə
## Yubiley tədbirlərinin keçirilməsi

Bu il XX əsrin əvvəlləri Amerika realist ədəbiyyatının görkəmli nümayəndəsi Cek Londonun 140 illik yubileyidir. Yazıçının 140 illik yubileyi münasibətilə kitabxanalarda maraqlı tədbirlərin keçirilməsi nəzərdə tutulmalıdır. Belə tədbirlərdən biri kitab sərgisi ola bilər. Kitab sərgisi müxtəlif başlıqlar altında təşkil oluna bilər: “Cek London – 140”, “Toz olmaqdansa, kül olmağı üstün tutan dahi yazıçı”, “XX əsr dünya ədəbiyyatının əvəzolunmaz siması”, “Azad ənginliklərin insanı”, “Fərdiliyin faciəsi”, “Əfsanəyə dönmüş ömür”, “Cek London: istedadın nəhəngliyi və taleyin ziddiyyətləri” və s. Kitab sərgisində yazıçının həm Azərbaycan, həm də rus dillərində çapdan çıxmış kitablarından istifadə etmək vacibdir.

“Cek London -140” adlı sərginin nümunəsi aşağıdakı kimi ola bilər:

1. Başlıq: “Cek London – 140”
2. Cek Londonun portreti
3. Kitablarının nümayişi

4. Görkəmli şəxsiyyətlərin Cek London haqqında fikirləri

Yazıçının özünün sitatlarından və aforizmlərindən də sərgidə istifadə etmək olar. Aşağıda belə sitatlardan nümunələr veririk:

- Əgər siz aydın düşünsəniz, aydın da yazacaqsınız, Əgər sizin fikriniz qiymətlidirsə, əsəriniz də qiymətli olacaq.
- İnsanın əsl təyinatı mövcud olmaq deyil, yaşamaqdır.
- Həyat hər zaman insana onun tələb etdiyindən daha azını verir.
- İnsan özünü həqiqi görkəmdə görməməlidir, o zaman həyat dözülməz olur.
- İtə atılmış sümük mərhəmət deyil. Mərhəmət – sənin də onun qədər ac olduğun zaman onunla sümüyünü bölüşməyindir.
- Qadın məğlub olduğu zaman qalib gəlir.
- Qadının hücumu gözlənilməz və anlaşılmaz davranışlardan ibarətdir.
- Tanış olmadığın oyunu oynadığın zaman heç zaman birinci gedişi etmə.
- Qorxmazlıq gücün ifadəsi deyil, təcrübə və biliyin məhsuludur.
- Nəhayətdə insana yalnız bircə həyat verilib, nə üçün o, lazımınca yaşamasın?
- Məhəbbət aclıqdan daha sərt və qəddar bir hissdir.

## Foto Sərgi



**Cek London gölü, Maqadan vilayəti, Rusiya**



# Kitablarının nümayişi:
























Kitabxanada keçirilən ənənəvi tədbirlərdən biri kitab müzakirəsidir. Kitab müzakirəsində təcrübəli kitabxanaçı və orta və yuxarı siniflərdə təhsil alan şagirdlər iştirak edirlər. Oxuculara ünvanlanacaq sualları kitabxanaçı öncədən hazırlamalıdır. Suallar hazırlanan zaman əsərin bu suallar vasitəsilə mümkün qədər çox açılmasına, əhatə olunmasına çalışmaq lazımdır.

Cek Londonun **"Bəyaz Diş"** kitabı üzrə keçiriləcək sual-cavabın (viktorinanın) nümunəsini təqdim edirik:

**Sual:** Bəyaz Diş haqqında povestin müəllifinin əsl adını deyin.

**cavab:** Con Qriffit London

**Sual:** "Bəyaz Diş" povesti neçənci ildə yazılmışdır?

**cavab:** Povest 1906-cı ildə yazılmışdır.

**Sual:** Ev itlərinin uzaq qohumu hansı heyvanlar hesab olunur?

**cavab:** İtlər canavarlardan törəmişlər.

**Sual:** Canavar balasına Bəyaz Diş adını kim və nə üçün verir?

**cavab:** Hindu Boz Qunduz ağappaq dişlərinə görə ona bu adı verir.

**Sual:** Bəyaz Diş və buldoq Çeroki arasındakı döyüş nə ilə nəticələnir?

**cavab:** Çeroki adlı buldoq Bəyaz Dişin boğazından yapışır və az qala onu boğur. Uidon Skott onu xilas edir və Smitdən satın alır.

**Sual :** Uidon Skotla görüşənə qədər Bəyaz Dişə hansı hiss tanış deyildi?

**cavab:** Bəyaz Diş Uidon Skottla görüşdükdən sonra onda sahibinə sevgi və onun üçün darıxmaq kimi hisslər yaşadı.

**Sual:** Hansı hadisələr Bəyaz Dişi hürməyə vadar etdi?

**cavab:** Birinci dəfə o, at sahibinə tabe olmayanda, daha sonra isə sahibinin ayağı sınarkən kömək çağırmaq lazım olanda hürür.

**Sual:** Şəhərdəki həyat Bəyaz Dişdən hansı keyfiyyətlərə yiyələnməyi tələb edirdi?

**cavab:** Sahibinə tabe olmaq. O, özünü əzizləməyə və tumarlamağa icazə verir və onun başqa itlərə hücum etməsi və ov etməsi qadağan idi.

**Sual:** Uidon Skott Bəyaz Dişdə inam hissini necə yaradır?

**cavab:** Bəyaz Diş onu dişləsə də, Uidon Skott onu döymür və onu əlindən ət yeməyə öyrədir, onu tumarlayır.

**Sual:** Bəyaz Dişin sahibinə olan sevgisi necə təzahür edir?

**cavab:** O, başını sahibinə söykəyir, sevindiyi zaman quyruğunu bulayır.

**Sual:** Uidon Skottun arvadı Bəyaz Dişə hansı adı verir?

**cavab:** Uidon Skottun arvadı ona Çox qiymətli Canavar adı verir, çünki Bəyaz Diş onları qaçqın cinayətkar Cim Xollun hücumundan xilas edir.

Sual-cavab gecəsinin sonunda kitabxanaçı əsərlə bağlı nəticə çıxara bilər. Belə nəticəyə gəlmək olar ki, yazıçının qəhrəmanları həyatın və ölümün, dostluğun və xəyanətin, alicənablığın və əclaflığın qiymətini bilirlər. Onlar çətin anda nə etmək lazım olduğunu bilirlər, onlar çox danışmırlar, lakin onların əvəzinə işləri və əməlləri, bəzən isə şücaətləri danışır.

Kitabxanada psixoloji diskussiya təşkil etmək olar. Cek Londonun yaradıcılığı əsasında təşkil olunmuş belə diskussiyanı “Zəifi sıxışdır və güclüyə tabe ol! – həyatın qanunu budurmu?” başlığı altında keçirmək

məqsədəuyğundur. Belə tədbirin təşkili zamanı bir neçə şair, yazıçı, ədəbiyyatşünas, o cümlədən psixoloq dəvət etmək olar. Bu diskussiya üçün yazıçının müəyyən qədər avtobioqrafik olan "Martin İden" əsərini seçmək daha doğru olar. Öncə aparıcı çıxış üçün dəvət olunmuş qonaqları və oxucuları salamlayır. Yazıçının həyat və yaradıcılığı, 140 illik yubileyi ilə əlaqədar kitabxanada keçirilən tədbirlər haqqında qısa məlumat verdikdən sonra yazarlardan birini və ya ədəbiyyatşünas alimi əsər haqqında danışmağa dəvət edir.

**Məruzəçi:** Cek Londonun "Martin İden" əsərinin əsas mövzusu poetik, mənfəət güdməyən şəxsiyyətin hər şeyin pulu həll etdiyi cəmiyyətlə bir arada ola bilməməsidir. Romanda hadisələr iki bir-biri ilə qarşılıqlı şəkildə bağlı istiqamətdə inkişaf edir: Martinin Rufa olan məhəbbəti və Martinin cəmiyyətdə yer tutmaq, cəmiyyətin onun yazıçı kimi istedadını qəbul etməsi uğrunda mübarizəsi. Həm də Martin İden tərəfindən bu mübarizə "zanbaq kimi solğun simalı qız –Ruf" uğrunda aparılır. Martinin dərin, həssas ruhu məhz Rufun obrazında "uğrunda yaşamalı, nələrəsə nail olmalı, mübarizə aparmalı və ölməli..." bir obyekti görürdü. Əgər Martin ilk baxışdan Rufa vurulursa, Ruf da bu gəncin qeyri-adi şəxsiyyətinin cazibəsinə düşür. Martin başa düşürdü ki, onunla, sadə matrosla imkanlı ailənin qızı olan Ruf arasında uçurum var. Lakin Martin qəti şəkildə bu uçurumu keçmək qərarına gəlir. Bunun üçün o, öz üzərində çox çalışır, müstəqil şəkildə təhsilini artırır və sonda gərgin zəhmətdən sonra uğur Martinin üzünə gülür. O, yazıçılıq fəaliyyəti ilə məşğul olur və onun əsərləri tədricən uğur və gəlir gətirməyə başlayır. Sanki indi o, istədiyi hər şeyə nail

olub. Lakin Martinin ruhu bundan heç bir məmnunluq əldə etmir. Onun fikirlərini indi yalnız bir şey məşğul edir – onun həyatında nə baş verib, ümumiyyətlə, insan həyatında nə baş verir? Martin heç cür özündə nəyin dəyişdiyini izah edə bilmir. O anlaya bilmir ki, niyə indi, məşhur və zəngin olduqdan sonra bütün varlı, adlı-sanlı insanlar onu nahara dəvət edir, onunla ünsiyyətə can atır.

Sonda Martin anlayır ki, insanların ona münasibətinin dəyişməsinin yeganə səbəbi – bank hesabındakı pulun miqdarıdır. Bunu dərk etdikdən sonra o, belə cəmiyyətdən cənub dənizlərindəki adalara qaçmağa qərar verir. Lakin onun üzdüyü gəmidə də hamı ona, bu məşhur şəxsə baxır. "Həyat parlaq işığın xəstə gözlərə təsiri kimi əzablı olmuşdu. Bu işıq onun gözləri qarşısında parlayır və göy qurşağının bütün rənglərini əks etdirirdi. Bu, onu çox ağrıdırdı". Martin gəminin kayutunun illüminatorundan özünü okeanın dərinliklərinə buraxır və həyatla bütün haqq-hesablara son qoyur.

*Sonra söz psixoloqa verilir*.

O, çıxışında bu əsəri çox sevərək oxuduğunu qeyd edir və hamını onu oxumağa dəvət edir. Sonra isə əsərdəki bir çox psixoloji nüanslara toxunur: Əsər haqqında kifayət qədər ətraflı məlumat verildi. Mən əsərdə sual doğuran bir sıra məsələlərə toxunmaq istəyirəm. Niyə əsərin qəhrəmanı Martin İden öz qələbəsinin ən yüksək pilləsində olduğu zaman könüllü şəkildə həyatdan getməyə qərar verir? Martinə qadına olan məhəbbət hissi irəli getməyə təkan verirdi. O elə hesab edirdi ki, Ruf onun hisslərinə qarşılıqlı cavab verir. Əslində isə Rufun Martinə olan hissləri heç zaman birmənalı olmamışdı. Ruf heç cür onun səylərini

bölüşmürdü, onun yazıçı olmaqla bağlı daxili tələbatını anlamırdı. Rufla özünün həyata bu qədər fərqli baxışlarının olduğunu Martin çox gec başa düşür. Məhz pul, şöhrət və məşhurluq Martini Rufun gözündə gülməli pərəstişkardan evlənmək üçün ciddi namizədə çevirir.

Lakin Martinin həyatı faciəvi sonluqla bitir. Martin İdenin okeanın qoynuna atılması tamamilə təbii, sadə bir hərəkət kimi təsvir olunur. O, varlıları əyləndirən təlxəyə çevrilmək istəmir. Xilas olmağın başqa yolunu isə o, görmür. Onun faciəsi də məhz bundadır.

Tədbirin sonunda oxucular, şagirdlər əsərlə bağlı onları maraqlandıran sualları görüş iştirakçılarına ünvanlayırlar.

Kitabxanada yazıçıya həsr olunmuş ədəbi-bədii gecənin keçirilməsi də məqsədəuyğundur. Tədbir iki hissədən ibarət olur. Tədbirə qələm əhli, ədəbiyyatşünas alimlər, ədəbiyyat müəllimləri, məktəblilər, oxucular dəvət olunurlar. Tədbirin birinci hissəsi yazıçının yaradıcılığı ətrafında çıxışlardan ibarət olur. İkinci hissədə isə yazıçının qələmə aldığı roman, povest və pyeslərdən parçalar səsləndirilir.

***"Həyata məhəbbət dolu cəsur insan"*** adlı ədəbi-bədii gecənin ssenarisi nümunə üçün təqdim olunur. Tədbirin keçiriləcəyi zalın səhnəsindən Cek Londonun portreti asılır. Yazıçının aforizmlərindən biri portretin altından asıla bilər. Məsələn, "İnsanın əsl təyinatı mövcud olmaq deyil, yaşamaqdır!".

*Aparıcılar səhnəyə daxil olur:*

**I Aparıcı:** XX əsr Amerika realist ədəbiyyatının görkəmli nümayəndəsi Cek Londonun əsərləri olmadan həmin

yüzilliyin ədəbiyyatını təsəvvür etmək çətindir. O, ədəbiyyatda öz sözünü demiş elə yazıçılardandır ki, zaman onun əsərlərinin üzərində öz hökmünü itirir. Onun yazdığı əsərlər həm müasirləri, həm də gələcək nəsillər tərəfindən qəbul olunmuş, sevə-sevə oxunmuşdur. Təsadüfi deyil ki, onun kitabları yeniyetmə və gənclər tərəfindən ən çox oxunan, kitabxanalarda ən çox tələb görən kitablar olmuşdur və bu gün də bu tendensiya dəyişmir. Lakin müəyyən yaşa dolduqdan, həyat təcrübəsi qazandıqdan sonra da biz oxucular yenidən bu əsərlərə qayıdırıq, çünki Cek London qələminin bizdə oyatdığı və zamanla müəyyən qədər kəskinliyini itirən hissləri – həyata romantik baxışı canlandırmaq ehtiyacı duyuruq. O, öz kitabları ilə hər dəfə sübut edir ki, insan ən ağır vəziyyətlərdə belə köməksiz deyil, hər şeyi onun mənəvi keyfiyyətləri, mövqeyi, iradəli və ya iradəsiz olması həll edir.
**II Aparıcı:** Cek Londonun həyatı cəmi qırx il, yaradıcılığı isə iki onillikdən də azdır. Lakin bu qədər qısa müddətdə onun yaratmağa imkan tapdığı əsərlərə baxdıqda, bunun necə gərgin bir əmək nəticəsində mümkün olduğu insanı heyrətə gətirir. Burada məsələ yalnız onun kitablarının sayında deyil, halbuki bu da çox mühüm göstəricidir. Belə ki, yazıçının hələ sağlığında 50, ölümündən sonra isə daha 7 kitabı çapdan çıxmışdı. Məsələ, hər şeydən əvvəl Cek Londonun yaradıcılıq axtarışlarının özünəməxsusluğundadır ki, bu özünəməxsusluq da onun yazıçılığının, bədii yaradıcılıq qabiliyyətinin mahiyyəti və mənası idi. Onun yazıçı kimi yüksəlişi, məşhurluğu o qədər sürətli, o qədər parlaq bir hadisəyə çevrilmişdi ki, bu çox zaman onun müasirlərində həsəd hissi doğururdu. Lakin bu yüksəliş

yazıçıya hər bir insanın qatlaşa bilməyəcəyi əziyyətlər, gərgin zəhmət, iradə bahasına başa gəlmişdi.

**I Aparıcı:** Məlumdur ki, Cek London yaradıcılığa şimal hekayələri ilə başlamışdır. Qızılaxtaranlara qoşularaq Alyaskaya gedən gənc Cek burada Şimal qışının bütün sərt gözəlliyini və hədsiz çətinliyini bilavasitə yaşamışdır. Onun burada yaşadıqları sözə çevrilərək ilk hekayələrinin meydana çıxmasına səbəb olmuşdur. Məhz bu hekayələr də Londonu geniş oxucu kütləsinə tanıdır və sevdirir. Oxucuları bu əsərlərin yeniliyi, bədii dünyagörüşünün qeyri-adiliyi cəlb edir. Onun ilk hekayələri 1899-cu ildə nəşr olunur. 1900-cü ildə isə ilk hekayələr toplusu olan "Canavar oğlu" çapdan çıxır. Sonrakı illərdə bir-birinin ardınca onun yeni hekayə topluları "Atalarının Tanrısı", "Şaxtanın övladları", "İnsana inam" və digərləri, həmçinin "Qarlar qızı", "Dəniz canavarı", "Dəmir Daban", "Martin İden" romanları çap olunur.

**II Aparıcı:** Cek London həm də novator yazıçı idi. Onun ilk kitablarının ən qiymətli uğuru lirik dolğunluğu və miqyaslılığıdır. Bu hekayələr bu gün də yeni poetikanın həqiqi novatorluq nümunələri kimi qəbul olunur. Onun əsərlərinin daha bir diqqətəlayiq cəhəti ondan ibarətdir ki, bu əsərlərdə nəql olunanlar xüsusi sərrastlıq, itiliklə oxucuya çatdırılır, müəllif özünün nə simpatiyasını, nə də antipatiyasını bildirmir, ümumiləşdirmələr aparmır.

**I Aparıcı:** Yazıçı ömrünün son illərində böyrək xəstəliyindən əziyyət çəkirdi. Ağrılarının sakitləşməsi üçün həkimlər ona morfi təyin etmişdilər. 1916-cı il noyabrın 22-si gecəsi yazıçının ağrıları hədsiz güclənir. Buna görə o, lazım olduğundan artıq morfi qəbul edir. Səhər onu ümidsiz

vəziyyətdə, otağında iki boş dərman şüşəsi ilə tapırlar. Bunun nəticəsində yazıçının intihar etməsi haqqında söz-söhbətlər yaranır. Bu məsələ indiyə qədər tam aydınlaşmamışdır, mübahisəli olaraq qalmaqda davam edir. Lakin yazıçının istedadının pərəstişkarları o zaman da, indi də bu mübariz, iradəli insanın intihar etməsini qəbul etmirlər.

**II Aparıcı:** Cek London çox gənc yaşlarında yazıçı kimi şöhrətin elə zirvəsinə yüksəlmişdi ki, artıq həyatının son illərində ondan yeni, əvvəlkindən daha qüdrətli əsərlər gözləyən oxucularının tələblərinə qarşı bir qədər laqeydləşmişdi. Artıq yazıçı daha az yazırdı, bədii yaradıcılq onu əvvəlki kimi cəlb etmirdi. Lakin yazıçılığının ən məhsuldar dövründə Cek London həm həcm baxımından, həm də bədii dəyərinə görə o qədər intensiv işləmişdi ki, bu əsərlər nə qədər onilliklər keçsə də onun ədəbiyyat tarixindəki möhtəşəm yerini əbədiləşdirmişdir.

*Tədbirin sonunda şagirdlər yazıçının **"Həyat eşqi"** hekayəsini bədii qiraət şəklində təqdim edirlər.*

SON

# İnternetdə istifadə olunmuş saytlar:


1. www. google.ru
2. https://ru.wikipedia.org/
3. www.londonjack.net.ru/

# Ədəbiyyat siyahısı:

## Əsərləri

Azərbaycan dilində:

1. Bəyaz Diş: povest. – Bakı : Altun Kitab, 2012. – 112 s.
2. Hekayələr. – Bakı : Qanun, 2011. – 120 s. – (Dünya uşaq ədəbiyyatı)
3. Martin İden: roman. – Bakı : Şərq-Qərb, 2009. – 399 s. – (Dünya ədəbiyyatı klassikləri). – Kitab Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilində nəşr edilməsi haqqında” 2007-ci il 24 avqust tarixli sərəncamı ilə nəşr olunub
4. Seçilmiş hekayələri: Nəsr. – Bakı : Altun Kitab, 2013. – 224 s. - (Hekayə ustaları)
5. Seçilmiş əsərləri: Povestlər və hekayələr. – Bakı : Öndər nəşriyyat, 2005. – 512 s.

Rus dilində:

6. Белый Клык: Повесть. – Москва: ОНИКС, 2006. – 208 с. ил. – ( Золотая библиотека)
7. Маленькая хозяйка большого дома: Роман. – Москва: АСТ, 2004. – 509 с.
8. Мятеж на «Эльсиноре»: роман. – Москва: Дом, 1993. – 576 с. – (Звезда приключений)

9. Сердца трех: Роман. – Москва: АСТ: Астрель: АСТ МОСКВА. – 414[2] с. – (Внеклассное чтение)

**Dünyaya həqiqəti çatdırmaq istəyən tənha insan - Cek London. Görkəmli Amerika yazıçısı Cek Londonun 140 illik yubileyinə həsr olunmuş metodik vəsait**

Kompyuter yığımı                    Təranə Hacıyeva

və dizayn:

Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;
E-mail: childlibbaku@yahoo.com
URL:www.clb.az

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında

çap olunmuşdur.
Sifariş:
Çapa imzalanmışdır:
Tirajı:
Pulsuz